*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 246-253* *ISSN: 2663-4406*

*Cənubi Azərbaycan ədəbiyyatı*

**UOT:** 821.512.162(091)
Pərvanə Məmmədli*

# XALQININ SEVGİSİNƏ SADİQ QALAN ŞAİR-VƏTƏNDAŞ

***Xülasə***

Məhəmmədtağı Zehtabi bədii fəaliyyətlə məşğul olmaqla yanaşı, türkologiya, tarix, dilçilik, ədəbiyyat və folklor ilə bağlı dəyərli əsərlərin müəllifi kimi tanınır. M.Zehtabi Cənubi Azərbaycanda mədəniyyəti və tarixi saxtalaşdırılmış xalqın mənəvi irsini tədqiq etmişdir. O, həmçinin bənzəri olmayan şeir və poemaların müəllifidir. O, öz əsərləri ilə maarifçiliyin təbliği və xalqın milli şüurunun oyanmasında fəal iştirak etmişdir.

**Açar sözlər:** Məhəmmədtağı Zehtabi, bədii yaradıcılıq, Cənubi Azərbaycan, mədəniyyət və tarix, mənəvi irs

## THE POET CITIZEN DEVOTED TO THE LOVE OF HIS PEOPLE

***Summary***

Mahammadtaghi Zehtabi is known as an author of valuable works about turkology, history, linguistics, literature and folklore, including he was engaged in literary activity. M.Zehtabi investigated the spiritual heritage of the people whose cultural history had been falsified in South Azerbaijan. He is the author of unexampled poem and long poems. He actively promoted enlightenment with his works and awakened the national consciousness of the people.

**Key words:** Mahammadtaghi Zehtabi, Southern Azerbaijan, cultural history, spiritual heritage

## ПОЭТ-ГРАЖДАНИН, ПРЕДАННЫЙ ЛЮБВИ СВОЕГО НАРОДА

***Резюме***

Мухаммедтаги Зехтаби был известен как автор ценных работ, связанных с тюркологией, историей, лингвистикой, литературой и фольклором, также занимался художественным творчеством. М.Зехтаби исследовал наследие Южного Азербайджана, чья культура и история были искажены. Он также является автором уникальных стихотворений и поэм. Своими работами активно содействовал просветительству и пробуждал национальное сознание народа.

**Ключевые слова:** Мухаммедтаги Зехтаби, художественное творчество, Южный Азербайджан, культура и история, духовное наследие

**Giriş.** Türkologiya, tarix, dilçilik, ədəbiyyat və folklora aid dəyərli əsərlərin müəllifi kimi tanınan M.Zehtabi bədii yaradıcılıqla da məşğul olmuşdur. Məhəmmədtağı Zehtabi Cənubi Azərbaycanda tarixi saxtalaşdırılıb təhrif edilmiş Azərbaycan xalqının mənəvi irsini yenidən arayıb-araşdırmışdır. O, həm də bənzərsiz şeir və poemalar müəllifidir. Yazdığı əsərləri ilə xalqının maariflənməsi və milli şüurunun oyanmasına xidmət göstərmişdir.

Məhəmmədtağı Zehtabi 1923-cü ilin oktyabrın 13-də Şəbüstərdə kirişçi ailəsində anadan

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru. E-mail: mamedli_ph@yahoo.com

olub. O, ibtidai təhsilə kənd məktəbində başlamış, lakin iki il oxuduqdan sonra ailə dolanışığı ilə bağlı təhsildən ayrılmış, sonra təhsilini Təbrizdə davam etdirmişdir. İlk şeirini 13 yaşında farsca yazsa da, həmyerlisi Mirzə Əli Möcüzün əsərləri və özü ilə tanışlığı onu ana dilində yazmağa ruhlandırmışdı. Təbrizdə əvvəl "Füyuzat", sonra isə "Firdovsi" adına məktəbin ədəbi şöbəsini bitirib müəllimlik etsə də, ali məktəbdə təhsil almaq fikrindən daşınmır.

M.Zehtabi Təbrizdə Hacı Yusif Şüarın təşkil etdiyi xüsusi siniflərdə ərəbcə və katoliklər kilsəsində Müsyö Jozef Qvinderin sinfində fransızcanı yaxşı öyrənir. Beləliklə, ana dili ilə yanaşı, fars, ərəb, fransız, sonralar mühacirət dövründə isə rus dillərini mükəmməl mənimsəyə bilir. 1940-cı illərdə M.Zehtabi Azərbaycan Demokratik Firqəsinin (Partiyasının – P.M.) mətbu orqanı olan və Mirzə Əli Şəbüstərinin redaktorluğu ilə ana dilində nəşr olunan "Azərbaycan" qəzetində məqalə və şeirləri ilə çıxış edir. Sonralar o günləri xatırlayıb yazırdı: "1945-ci (1324) il gəldi. "Azərbaycan" qəzeti yenə də nəşr olunmağa başladı. Bu qəzetlə tanışlıq məni ayrılmaz şəkildə ana dilimə bağladı. Ana dilimdə yazmağa başladım. Bu dövrdən ana dilimi elmi cəhətdən öyrənmək ürəyimdə mühüm hədəf və arzularımdan birinə çevrildi. Ana dilimi sevdim, sevdikcə dərinləşdim və dərinləşdikcə onu daha artıq sevdim. Universitetə daxil olub elmi cəhətdən öyrənmək üçün o zaman mövcud olan bütün qapıları döydüm, can atıb çabaladımsa, hamısı üzümə bağlı oldu" [1, s.3].

Z.Məhəmmədtağı 1946-cı ildə Azərbaycan Milli Hökumətinin Təbrizdə açdığı universitetin ədəbiyyat fakültəsinin ilk tələbələrindən olur. Yeni yaranmış Milli Hökumətin başçısı, eyni zamanda istedadlı publisist və ədəbiyyatşünas olan Seyid Cəfər Pişəvərinin həmin fakültədə həftədə iki dəfə "Dünya ədəbiyyatı" mövzusunda oxuduğu mühazirələrini dinləyir. Təəssüf ki, beynəlxalq və yerli qüvvələrin məkrli plan və maraqlarına uyğun gəlmədiyindən Milli Hökumət qan içində süquta yetirilir və onun uğurlu islahatlarının cərgəsində olan Təbriz Universiteti də qapadılır.

O müdhiş günlərdə qanlı rejimin ana dilində təhsilə, nəşrlərə və danışığa qoyduğu yasağa qarşı söylədiyi:

"Su deyibdir mənə əvvəldə anam, ab ki, yox. Yuxu öyrətdi uşaqlıqda mənə, xab ki yox. İlk dəfə ki, çörək verdi mənə, nan demədi. Əzəlində mənə duzdanə nəməkdan demədi… Özümə məxsus olan başqa elim vardı mənim. Elimə məxsus olan başqa dilim vardı mənim, – etirazı onun poeziyasının vizit kartına çevrilən məşhur "Sən osan, mən də buyam" [1, s.4] şeirində səsləndi.

İranda və başqa ölkələrdə təhsilini davam etdirmək istəyində olan M.Zehtabi bir çox maddi və digər problemlərlə qarşılaşır. Universitet təhsilini başa çatdırmaq və İrandakı rejimin siyasi təqiblərindən yaxa qurtarmaq üçün M.Zehtabi 1948-ci ildə vətənin bu tayına üz tutur. Lakin onu Bakıya gətirən bir neçə saatlıq yolu az qala, 4 ilə qət etməli olur. Sərhədi pozduğuna görə üç il Sibirə sürgün edilir.

Nəhayət, "millətlər atası" Stalinin ölümündən sonra bəraət alır və Sibirdən Tacikistanın paytaxtı Düşənbə şəhərinə göndərilir. Başına gələnlərə rəğmən gənc qəlbi hələ də böyük həyat eşqi, yaşayıb-yaratmaq həvəsi ilə döyündüyündən, Məhəmmədtağı hər şeyi yenidən başlamalı olur. Ali məktəbdə təhsil almaq ümidilə sovet ölkəsində yenidən axşam məktəbinə gedib onu bitirir. Düşənbə yataqxanasında "mən varam, mənim həyatım və xalqıma xidmətlərim hələ qabaqdadır" fikri və ümidilə qələmə aldığı "Mən diriyəm" şeirində yazırdı:

*Təslim olmayaraq var gücümlə mən,*
*Qışqırıb deyirəm:*
*Ölməmişəm mən!*
*Burada qulaqlar kardır, kar, nədən?!*
*Hələ ölməmişəm, diriyəm, diri!*
*Azər əsgərinin biriyəm, biri;*
*Sinnim ötməmişdir, otuzdur yaşım,*
*Bu fırtınadan da əyilməz başım,*
*Hələ xidmətlərim gələcəkdədir! [1, s.21]*

Bir ildən sonra Bakıda təhsil almaq arzusu ilə şair Azərbaycana gəlir. Sonralar bu barədə yazırdı; “Burada öyrəndim ki, Şurəvidə (SSRİ-də) universitetə daxil olmaq üçün orta məktəb attestatı lazımdır. Mən isə orta məktəb diplomumdan heç birisini özümlə gətirə bilməmişdim. Bir il burada axşam məktəbində oxuyub diplom alaraq onu bir ərizə ilə Bakı Universitetinə göndərdim. İki həftə sonra oradan müsbət cavab aldım, kitablarımı yığışdırıb Bakıda oxumağa getdim və yataqxanada yerləşdim. Günlərin birində yataqxana məsulu yanıma gəlib adımı soruşduqdan sonra: Səni universitetin rektoru çağırır, dedi get gör, nə deyir. Eşitmişdim ki, Bakı Universitetinin rektoru böyük kimyaçı, ixtiraçı, akademik Yusif Məmmədəliyev idi. O, İkinci Dünya müharibəsi dövrü kimya elmi sahəsindəki yeni elmi ixtiraları ilə Sovet ordusunu məğlubiyyətdən xilas etmişdi. Rektorun otağına getdim. Katibəsi adımı soruşub içəri girdi və qayıdaraq: buyurun, – deyə məni içəri buraxdı. İçəri daxil olub salam verdikdə, öz stolu arxasında oturmuş akademik Yusif Məmmədəliyev adımı və haralı olduğumu öyrəndikdən sonra: “Hansı fakültədə oxumaq istəyirsən? – deyə soruşdu. Azərbaycan dili və ədəbiyyatı fakültəsində, – deyə cavab verdikdə, rektor qabağında olan diploma işarə edərək, belə yaxşı qiymətlərlə niyə orada oxuyursan, gəl kimya fakültəsində oxu, – dedi. – Hörmətli akademik, mənim xalqımın ehtiyacı bunadır, – deyə cavab verdim. Bu sözlərimi eşidən universitetin rektoru, akademik ilan vurmuş kimi dik yerindən qalxıb gəldi və mənimlə səmimi və möhkəm əl verərək, sənə müvəffəqiyyətlər arzulayıram, – deyərək məni yola saldı” [1, s.6].

“Rəhbər yoldaşların” mərhəmətindən ali məktəbə ancaq otuz üç yaşında bərpa olub təhsilini davam etdirən Məhəmmədtağı “Xatirə” avtobioqrafik şeirində başına gələn macəralardan yazırdı:

*Rəhbər yoldaşların mərhəmətindən*
*Otuz üç yaşında tələbəyəm mən.*
*Halbuki uçmağa qanadım da var,*
*Susmayan, gur, möhkəm fəryadım da var.*
*İlk gün otağa girən zamanlar*
*Pıçpıça düşdülər qızlar, oğlanlar.*
*Biri alim dedi, biri müfəttiş. . .*
*Neçə gün bu sayaq davam etdi iş. . .*
*Cavan qəlblərdə, gənc ürəklərdə,*
*Nəhayət, mənimçün tapıldı yer də.*
*Dost olduq, danışdıq, keçmişə daldıq,*
*Hərdən “leksiya”dan yorulub qaldıq [2, s.24].*

Bu 33 yaşlı tələbə bir gün dərsdən qalmalı olur. Buna səbəb onun yeganə pencəyinin oğurlanması imiş. Milisə şikayət etsə də, xeyri olmur. Əksinə, onun özünü təqsirkar bilirlər. Şeirin sonunda tələbə şair “Leninin qurduğu” Azad Sovetlər ölkəsinə gəldiyindən peşman olduğunu yazır:

*Gördüm, həm lüt qaldım, həm oldum oğru.*
*Susaraq qayıtdım.*
*Gülürdü tərəf.*
*Mənə üstün idi hər zaddan şərəf.*
*Leninin qurduğu həyatı andım,*
*Xəta etdiyimi yaxşıca qandım [2, s.25].*

“Universiteti qurtarmağa yarım il qalanda həmin universitetin Şərqşünaslıq fakültəsində ərəb dili və ədəbiyyatını tədris etməyə və elə bu günlərdə ana dili barədə də əldə etdiyim biliyi xalqıma çatdırmaq haqqında fikirləşməyə başladım. Axı, xalqımın ona ehtiyacı var idi. Bu hədəfə çatmaq

üçün xalqıma qovuşmalı idim. Xalqıma qovuşmaq üçün də əvvəla, özüm Sovet birliyinin dəmir divarını yarıb oradan çıxmalı və ikincisi, quldur şah rejimini zaman devirməli idi".

Təhsilini başa vurduqdan sonra o, 15 il müddətində Şərqşünaslıq fakültəsində ərəb dili və ədəbiyyatını tədris edir. "Əbu Nəvvasın həyatı və yaradıcılığı" mövzusunda dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi elmi dərəcəsini alır. Azərbaycan Dövlət Universitetində işlədiyi dövrdə tələbələrə ərəb dili və ədəbiyyatının incəliklərini öyrətməklə yanaşı, onların mənəvi dəyərlərə yiyələnməsinə, milli ruhlu hərtərəfli vətənpərvər və kamil insan kimi formalaşmasına çalışır. Azərbaycanın tanınmış elm və siyasət adamları arasında onun vaxtı ilə yetişdirdiyi tələbələr az deyil (Məs. Əbülfəz Elçibəy, Vəfa Quluzadə və b.).

M.Zehtabi sovet totalitarizmindən canını qurtarmaq üçün 1971-ci ildə böyük çətinliklərlə İraqa köçür. Bağdad Universitetində qədim türk dillərini və fars dilini tədris edir. Dilçiliyə aid yazdığı 2 kitab dərs vəsaiti kimi istifadə olunur. Yazıb çap etdiyi əsərlər əsasında universitetin elmi şurası tərəfindən ona professor adı verilir. İraqda işlədiyi vaxtlar Avropaya səfər edir və bu zaman orada oxuyan güneyli tələbə gənclərlə görüşür və həmin tələbələr ona ana dilini öyrənmək üçün kitab tapmadıqlarını söyləyirlər. Nəticədə professor "İran türklərinin sərfi" (morfologiyası – P.M.) kitabını yazır və bu kitab tələbələrin köməyi ilə 1976-cı ildə Almaniyada çap olunur. İraqda yaşayan kərküklərin (türkmanların – P.M.) dili bəzi məhəlli fərqləri nəzərə almasaq, tamamilə Azərbaycan türkcəsindədir. M.Zehtabi adı ilə qeyd olunan kitabı bir qədər təkmilləşdirərək İraq türkmanlarını ləhcə və ədəbiyyatı da daxil olmaqla digər bir dilçilik kitabı da hazırlayır. Təəssüf ki, kitab sonralar orada onun yox, başqa birisinin imzası ilə çap olunur. Ümumiyyətlə, onun dilçiliklə bağlı 6 kitabı nəşr olunub [3, s.44].

Sonralar doğulub boya-başa çatdığı Təbrizə yenidən qovuşduqda Təbriz Universitetində Azərbaycan türkcəsini, eləcə də ərəb dilini tədris edir. M.Zehtabi Berlində nəşr etdirdiyi "İran türklərinin sərfi" kitabını tədris etməkdən ruhlanaraq və universitetdə tədris zamanı yüzlərlə gənc oğlan və qızların dili öyrənib mənimsəməyə can atdıqlarını bu sahədə mənbə və ədəbiyyatın qıtlığını nəzərə alıb "Müasir Azərbaycan ədəbi dilinin leksikologiyası", "Ana dilimizi öyrənək" adlı kitablarını yazır.

M.Zehtabi jurnalistika və tərcümə sahəsində də qələmini sınayır. Berlində "Ərk" dərgisini, Bağdadda isə 5 müxtəlif dildə "Birlik yolu" adlı qəzetini nəşr etməyə nail olur. Fransız ədəbiyyatından etdiyi tərcümələr hələ 40-cı illərdə qəzet səhifələrində dərc olunur. Sənət dostu Əliağa Vahidlə birlikdə klassik ədəbiyyatdan tərcümələr edir.

1979-cu ildə İranda Pəhləvi rejiminin süqutundan sonra Zehtabi nəhayət ki, vətəni Təbrizə qayıdır. Professor öz elmi tədqiqatlarını daha geniş aspektdə davam etdirir. M.Zehtabi Təbriz şəhərində çoxlu Azərbaycansevər dostları ilə "Azərbaycan mədəniyyət ocağı"nı yaradır. O, neçə illər boyu ardı-arası kəsilmədən bu ocağın iclaslarında iştirak edərək xalqımızın ədəbiyyat və keçmiş tarixini tanıtdırmışdır. İnqilabdan sonra ana dilinin istifadəsinin qadağan edilməsi nəticəsində oxuyub yaza bilənlərin az olmasını nəzərə alan bəzi partiya və cəmiyyətlər qəzet və jurnal nəşr etməklə yanaşı, Azərbaycan türkcəsinin öyrədilməsinə və yazılmasına yönəldilmiş kurslar açdılar. Təbriz şəhərində türkcə qrammatika kurslarının açılmasında M.Zehtabinin böyük rolu olmuşdur. Professor Zehtabi İran inqilabından sonra Təbriz Universitetində türk dili və ədəbiyyatını tədris etmiş və çoxlu müəllim yetirmişdir. O dövrdə ilk dəfə olaraq "Ana dilimizi necə yazaq" kitabçasını çap etdirmiş, dilin əsas – səs qanunları, ahəng qanunu açıqlanmışdır. Kitab əlifbanı düzgün yazıb-oxumaqda gənclərə bir mənbə olmuşdur. Sonralar Cənubda keçirilən orfoqrafiya ilə bağlı seminarlarda ondan çox faydalanmışlar. Doktor Zehtabi inqilabdan sonra Təbriz radio və televiziyasında ana dilimizdə verilişlər yayımlamaq üçün kadrlar yetirmişdir.

Ömrünün çox hissəsi qürbətdə, sürgündə, həbsxanalarda keçən M.Zehtabi 1998-ci ilin dekabr ayında ürək tutmasından müəmmalı şəkildə qəflətən vəfat etmişdir. O, doğulub boy atdığı Şəbüstərdə dəfn olunmuşdur.

Türkologiya, tarix, dilçilik, ədəbiyyat və folklora aid dəyərli əsərlərin müəllifi kimi tanınmış M.Zehtabi bədii yaradıcılıqla da məşğul olmuşdur. Böyük müşahidə qabiliyyətinə malik olan şairin

qələmindən onlarla gözəl poemalar çıxıb. Əsərlərini "Mişovlu", "M.T.Zehtabi", "Şəbüstərli", "Gülşən", "Kirişçi" və s. təxəllüslərlə imzalayıb.

"Çirik əfsanəsi", "Pərvanənin sərgüzəşti", "Bəxti yatmış", "Bağban Eloğlu", "Bəzz qalası", "Mişovun əfsanələri", "Qoy olsun on", "Həsti nəsim" və "Əliağa Vahidlə bağlı xatirələr" kimi bədii əsərləri ayrı-ayrı vaxtlarda Bağdad və Təbrizdə nəşr olunmuşdur. "Şahin zəncirdə" və "Başqa dilim, elim var mənim" adlı şeir toplusu Bakıda işıq üzü görmüşdür. Altıcildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabındakı Azərbaycan ədəbiyyatı ən qədim dövrlərdə adlı fəslin icmal oçerkini d-r M.Zehtabi f.e.n. Ç.Sadıqoğlu ilə birgə hazırlamışdır [4, s.28-57].

"Türkcəm mənim, səs bayrağım", "Sara və Məhəmməd" kitabları onun Təbrizdə çap olunmuş son kitablarındandır. Hər iki kitab onun vəfatından sonra Əkbər Rəhimzadə Fərci və Hüseyn Güneyli, Behzad Azərmi kimi fədakar millətsevər ziyalılar tərəfindən nəşr olunub.

"İslamaqədərki İran türklərinin dili və ədəbiyyatı", "Əruzun türk folklorundakı izləri" adları altında çap edilmiş silsilə yazıları ümumtürk ədəbiyyatına daxil olan dəyərli yazılardandır.

Füzuli qəzəllərinin vurğunu M.Tağı Zehtabi klassik ədəbiyyatımızda eşq, sədaqət və cəfakeşlik simvolu olan pərvanə obrazını çağdaş həyata gətirərək, "Pərvanənin sərgüzəşti" poemasında ona yeni məna tutumu verir:

*Zülmətlərə qəlbimdə dərin nifrət oyandı.*
*Fikrim o qaranlıqları boğmaqda dayandı*
*Cumdum, oda açdım qolumu, odlu həvəslə*
*Ta bir qucaq atəş gətirim yurduma töhfə*
*Rəhm etməyib üsyan, alovu – cismimi yaxdı,*
*Şər qüvvələr at çapdı, qanım sel kimi axdı*
*Yanmaqda da eşqim kimi, dildən-dilə düşdüm,*
*Qan dalğası atdı, bu azad sahilə düşdüm [2, s.176].*

"Şahin zəncirdə" poemasında şər qüvvələrin at çapdığı sahildən azad bildiyi o biri sahilə düşdüyü zaman keçirdiyi hiss və yaşantılarını qələmə alır:

*İllər boyu zəncirdə qalsam da, varam mən*
*Qəlbimdə mənim sarsımamış zərrəcə iman*
*Bir gün zəncirimi axır qıraram mən,*
*Ərkin başına qanla qızarmış qanadımdan*
*Bayraq vuraram mən! [5, s.27]*

Poemanı təhlilə cəlb edən Anar Əhmədoğlu yazır ki, "şahin", "zəncir", "Qaf dağı", "şimşək", "Mişov", "Xəzər", "qürbət", "həsrət", "zülmət", "al pərdə", "od", və "ilan" hərəsi öz əsl leksikasından başqa oxucuya dərin anlamlar danışır. Bu əzəmətli poema "Şimşək" sözü ilə başlayır, "Şimşək kimi illər boyu sonsuzluğu yarmış" şər güclərin simgəsi (simvol) olan qaranlıq gecəni hər an yarmaqda olan şairin çabalarını göz önünə gətirib özünü bir həqiqət aşiqi kimi bəri başdan tanıtdırır. Şimşək işığa və eyni halda cəld olmağa, yatmışları diksindirmək, gözləri işıqlandırmağa işarədir" [6, s.14].

Şahin və ya qartal göylərdə süzüb ovun üzərinə şimşək kimi şıdırğı cuman bir quşdan başqa daha geniş anlamlar aşılayır.

Şahin ədəbiyyatda azadlıq, güc, məğrurluq simvolu kimi qəbul olunub. Şair poemada özünü şahin obrazında göstərib onun dili ilə xəyallarını, istəklərini dilə gətirir. Doğma eli Şəbüstərə yaxın olan Mişov dağından qanad açıb Xəzərin üzündən öpmək istəyəndə, ayağındakı zəncir onu saxlayır:

*"Bir anda Mişovdan uçaraq aşdı Səhəndi;*
*Təbrizdən ötüb keçdi Mərəndi;*

*Şimşək kimi bir çaxdı dumanda,*
*Qıy vurdu gəlin tək Savalanda ...*
*Görcək Xəzəri, istədi öpsün yanağından,*
*Aşcaq qanadın, saxladı lakin*
*Zəncir ayağından" [5, s.28].*

Şair poemada özünü bir xalqın nümayəndəsi olaraq özü kimi azad yaşamış bir xalqın da mənəvi cəhətdən qandallanmasını göstərməyə çalışıb.

On hekayəni özündə birləşdirən "Qoy olsun on" nəsr toplusunda müxtəlif zaman və məkanlarda yaşayan insanların həyat hekayətlərindən bəhs olunur.

İraq-İran müharibəsi zamanı ölkəyə böyük maddi və mənəvi ziyan dəymiş, uşaqlar yetim, ailələr başsız qalmışdı. Məhəmmədtağı Mişovlu (M.Zehtabi) hekayə toplusuna adı verilən "Qoy olsun on" əsərində Viktor Hüqonun humanist məzmunlu bir şeirindəki süjeti yada salır [7].

Yazıçı nəql edir ki, həyatda bu hadisəyə bənzəyən bir əhvalatla qarşılaşdığına görə, onu bədii dillə qələmə alıb. Hekayədə göstərilir ki, ailəsini zorla dolandıran və 9 uşağı olan azərbaycanlı kontor işçisi yetim qalmış daha bir uşağı himayə etmək qərarına gəlir.

Hekayə müəllifi müharibənin acı nəticələrindən əzab, məşəqqət çəkən insanların vəziyyətini yüngülləşdirmək üçün humanizmi, insanların bir-birinə təmənnasız qayğısını çıxış yolu kimi mənalandırır. Hekayədə böyük humanizm ön plana çəkilir və yazıçı bütün insanlarda mərhəmətli olmağı tövsiyə edir. Yazıçı hekayədə çətinliklərin İran əhalisini qorxutmadığını, insanların humanist əməlləri ilə onları aradan qaldıra biləcəyi qənaətindədir.

*Yerin sinəsindən çıxan saf*
*bulaqlar kimi,*
*Elin sinəsindən qopub ildırım tək şaxandan biri*
*Nə qəlbində pul var, nə şöhrət, nə ad*
*Özü sadə bağban,*
*ürəkdən polad*
*Onun dərdi bir el olub, bir vətən*
*Çörəksiz qalıb, xalq dərdin çəkən*
*Tükənməz puldan göz çəkən*
*Ovladı şamsız yatan qəhrəman bir insan [8, s.37]*

– bu misraları M.Zehtabi eyniadlı poemasının girişində Bağban Eloğluna ünvanlayıb. "Bağban Eloğlu" şairin son kitablarındandır. Poemanın ilk variantı Bağdadda, son təkmilləşmiş forması isə Təbrizdə çap olunmuşdur. Əsərdə o, Məşrutə inqilabının fəal iştirakçılarından biri, Həsən Bağbanın mübarizə dolu həyatını bədii dillə qələmə almışdır.

İranda əsrin əvvəllərindən bu yana baş vermiş inqilablar, xüsusilə Məşrutə inqilabı ilə bağlı tarixi olaylar M.Zehtabini həmişə düşündürürdü. O, bununla bağlı arxiv materialları və tarixi sənədlərlə tanış olub, araşdırmalar aparırdı.

Məşrutə inqilabının iştirakçıları əsasən xalq içərisindən çıxmış və nəcib əməllərinə görə xalqın dərin hörmətini qazanmış şəxslər idi. Bu da özlüyündə onun xalq üsyanı olmasını bir daha sübut edir. Zehtabi yazırdı ki, bu comərd insanların adına "xan" kəlməsi qoşar, özlərini də "qoçu", "məşədi" çağırardılar.

Zehtabi sözügedən əsərində göstərir ki, Məşrutə inqilabının fəal iştirakçılarından biri el içində böyük hörmət qazanmış Həsən Bağban Təbrizin Lilava məhəlləsinin mücahidlərinin başçısı idi. M.Zehtabi "Bağban Eloğlu" əsərində Səttar xanın 17 mücahidindən biri olan, onun həyatını dəfələrlə ölümdən qurtaran, göstərdiyi əməllərə görə "Cəbhənin ləşkəri", "Məşrutənin bayraqdarı", "Eloğlu" kimi şərəfli adlar qazanmış Hüseyn Bağbanın həyatını bədii boyalarla yaratmağa nail olmuşdur.

M.Zehtabi bu əsərini o illərdə yaşayan konkret şəxsiyyətlərlə bağlayaraq baş vermiş tarixi olayları açıb göstərmək istəmişdir [8, s.77].

Tarixi olayları ədəbiyyata gətirən doktor M.Zehtabi tarix və toponimika sahəsi ilə də ciddi məşğul olmuş, araşdırmalar aparmışdır. Onun "İran şahlarının 2500 illik – cinayətləri" əsərində fars millətçilərinin törətdikləri cinayətlərdən bəhs edilir.

Alim İran türklərinin tarixi ilə bağlı araşdırmalarında böyük ürək yanğısı ilə yazır ki, bu məsələ ilə bağlı dünya türkologiyasında dəqiq bilgi yoxdur, verilən məlumatlar da bilərəkdən saxtalaşdırılmış, xüsusilə onların milli və etnik tərkibi ilə bağlı faktlar təhrif edilmişdir [9].

M.Zehtabi uzun illər boyu apardığı araşdırmaların nəticəsi olan "İran türklərinin əski tarixi" adlı üçcildlik kitabını yazmışdır. Onun bu kitabı türk dünyasında böyük bir hadisə kimi qarşılanmışdır.

Kitabın I hissəsində öncə ümumi tarix, İranda və Azərbaycanda tarixə baxış və münasibət açıqlanır, sonra isə tarixi qaynaqlar göstərilir və bu qaynaqlar əsasında türklərin tarixi xronoloji ardıcıllıqla araşdırılır, eyni zamanda dil, el, şəxs və yer adlarının mənşəyi izah olunur. Müəllifin kitabda gəldiyi aşağıdakı nəticə diqqəti daha çox çəkir: "Cənubi Azərbaycan sərhədlərindən xeyli uzaqlarda olan və İranın mərkəzi əyalətlərindən sayılan Həmədan, Savə, Zərənd, Əsədabadın əhalisi türklər olmuşdur. Bunu oradakı qazıntılar zamanı tapılmış gil lövhələr, o yerlər: toponimikası, folkloru, ədəbiyyatı təsdiq edir" [10, s.267].

"İran türklərinin əski tarixi" kitabı haqqında Almaniyanın Berlin Universitetinin türkoloqu, professor Barbara Kellner Haikele bu tarixi kitab haqqında belə yazır: "Professor Zehtabinin bu kitabı irihəcmli və elmi əsər olduğu halda, əski zamanlardan bəri İran-Turan ölkələri dövrünün dil və ədəbiyyatından təsir almış və dolğun analiz ilə yazılan bir əsərdir" [1, s.9].

**Nəticə.** M.T.Zehtabi "İslama qədər İran türklərinin dili və ədəbiyyatı" kitabının giriş hissəsində yazır ki, "… ana dilimiz və ədəbiyyatımızın neçə minillik vəziyyəti, keçdiyi yolları, uğradığı müsbət və mənfi hadisələri bilmək və araşdırmaq üçün xalqımızın və ümumiyyətlə, çağdaş İran türklərinin o dövrdəki durumu və keçdiyi yollarla yığcam və qısa şəkildə tanış olmaq zəruridir. İslamdan əvvəlki 45 min illik tariximizlə bu tanışlıqda məqsəd yalnız və yalnız dilçilik və ədəbiyyatşünaslıq baxımından deyil, folklor və ədəbiyyatımızın siyasi, iqtisadi və sairə tarixi hadisələrlə ilgili olaraq keçdiyi yolu qısa aydınlaşdırıb açıqlamaq və bu sahədə ilk addımlar atmaqdır" [11, s.8].

M.Zehtabinin yaradıcılığının böyük qismi Azərbaycan tarixini sifarişlə yazılan əsərlərin saxtakarlığından, təhriflərindən xilas etməyə yönəlmişdir. M.T.Zehtabi "İslama qədər İran türklərinin dili və ədəbiyyatı" əsərində tariximizin qədim dövrü haqqında fikrini belə ümumiləşdirir: "Tarixə məlum olan miladdan 45 min il əvvəldən İslama qədərki uzun bir dövrdə çağdaş İranın bütün Qərbi, Mərkəzi və Xəzərin cənub əyalət və mərkəzlərində, Şimali və Cənubi Azərbaycan da daxil olmaqla, həmişə türkdilli ellər, qəbilələr, el birləşmələri və xalqları yaşayıb, bəşəriyyətin və İranın ən əski və ən zəngin mədəniyyətini, hünəri və sənətini yaradaraq, onunla bütün Yaxın Şərq, Misir və hətta Avropaya örnək olmuş və yol göstərmişdir" [12].

Doktor M.Zehtabi millətinə olan sevgisinə ömrü boyu sadiq qalmışdır. Onun dilinə, elinə xor baxıb qara yaxan millətçilərə həmişə tutarlı cavablar vermiş, onları susdurmuşdur. Əqidəsi üzündən başı çox bəlalar çəkən vətənpərvər ziyalıya o tayda "pantürkist", bu tayda isə "millətçi" damğası vurmuşlar. Bu gün Azərbaycan xalqının böyük oğlunun məzarı onu sevib dəyər verənlərin ziyarətgahına çevrilmişdir.

**ƏDƏBİYYAT**


1. Zehtabi Məhəmmədtağı. Başqa dilim, elim var mənim. Şeir toplusu. (Transliterasiya edəni, tərtibçi, izahlı sözlərin və ön sözün müəllifi Pərvanə Məmmədli). Bakı, "Elm", 2011.
2. Zehtabi Məhəmmədtağı. Türkcəm mənim, səs bayrağım. Təbriz, 2011.
3. Məmmədli Pərvanə. Cavabı 70 il boyu axtarılan sual. "21 Azər" jurnalı, 1999, 2-ci sayı.

4. Zehtabi Məhəmmədtağı. Ç.Sadıqoğlu. Azərbaycan ədəbiyyatı tarixi, altı cilddə. Bakı, "Elm", 2007 (Azərbaycan ədəbiyyatı ən qədim dövrlərdə)
5. Zehtabi Məhəmmədtağı. Şahin zəncirdə. Seçilmiş əsərləri. Bakı, 2011.
6. Əhmədoğlu Araz. Təbrizdən ötüb keçdi Mərəndi… "Xalq Cəbhəsi", 2016, 12 mart.
7. Zehtabi Məhəmmədtağı. Qoy olsun on. Təbriz, 1982.
8. Zehtabi Məhəmmədtağı. Bağban Eloğlu, 1367..
9. Zehtabi Məhəmmədtağı. İran şahlarının 2500 illik cinayətləri (farsca). Bağdad, 1975.
10. Zehtabi Məhəmmədtağı. İran türklərinin əski tarixi, 2 cilddə. Təbriz, 1999.
11. "Dilmac" dərgisi (türk və fars dillərində). Yanvar 2004 (Dey ayı, 1383).
12. Məhəmmədtağı Zehtabi (M.Şəbüstərli). İslama qədər İran türklərinin dili və ədəbiyyatı. Təbriz, "Əxtər", 1380.
13. Zehtabi Məhəmmədtağı. Müasir ədəbi azəri dili. Təbriz, "Aşina", 1379.
14. Zehtabi Məhəmmədtağı. "Ərmağane Azərbaycan" dərgisi. Təbriz, 3-cü il, № 40, 1383.